# APARICI İQTİSADÇI (VERGİLƏR ÜZRƏ)

# VƏZİFƏSİ ÜZRƏ MÖVZULAR

**1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi üzrə:**

- Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə tənzimlənən münasibətlər
- Azərbaycan Respublikasının vergi qanunvericiliyi
- Vergilərin müəyyən edilməsinin və tutulmasının əsasları
- Azərbaycan Respublikasında vergi sistemi;
- Vergilərin müəyyən edilməsinin əsas şərtləri
- Bu Məcəllədə istifadə edilən əsas anlayışlar;
- Vergi ödəyicisinin hüquqları
- Vergi ödəyicisinin vəzifələri
- Vergi ödəyicilərinin uçotu
- Vergi yoxlamaları və maliyyə institutlarında vergi monitorinqi
- Kameral vergi yoxlaması
- Səyyar vergi yoxlaması
- Ödənilmə vaxtı keçmiş və artıq ödənilmiş vergilər üzrə faizlər
- Vergitutma obyektinin ayrı-ayrı hallarda müəyyən edilməsi qaydaları
- Vergi hesabatının tərtib edilməsi və verilməsi qaydası
- Vergi öhdəliyi
- Vergi öhdəliyinin əvvəlcədən müəyyənləşdirilməsi barədə qərar
- Muzdlu işlə əlaqədar alınan gəlir;
- Muzdlu işə aid olmayan fəaliyyətdən gəlir;
- Gəlir vergisinin dərəcəsi;
- Gəlir vergisindən azadolmalar və güzəştlər;
- Mənfəət vergisinin dərəcələri;
- Mənfəət vergisindən azadolmalar və güzəştlər
- Gəlirdən çıxılmayan xərclər;
- Gəlirdən faizlər üzrə çıxılan məbləğlərin məhdudlaşdırılması
- Amortizasiya ayırmaları və gəlirdən amortizasiya olunan aktivlər üzrə çıxılan məbləğlər;
- Təmirlə bağlı xərclərin gəlirdən çıxılması;
- Qeyri-maddi aktivlərə çəkilən xərclərin gəlirdən çıxılması

- Əmlakın təqdim edilməsindən yaranan zərər
- Zərərin keçirilməsi
- Ödəmə mənbəyində dividenddən vergi tutulması
- Ödəmə mənbəyində faizlərdən vergi tutulması
- Qeyri-rezidentin daimi nümayəndəliyinin xalis mənfəətindən ödəmə mənbəyində vergi tutulması
- Kassa metodundan istifadə olunarkən xərcin çəkilməsi vaxtı
- Hesablama metodundan istifadə edilərkən xərcin çəkilməsi vaxtı
- Maliyyə lizinqi
- Qeyri-rezidentlərin vergiyə cəlb edilməsi
- ƏDV-nin dərəcəsi
- Bəyannamələrin verilməsi və ƏDV-nin ödənilməsi
- ƏDV üzrə hesabat dövrü
- Əmlak vergisinin dərəcələri
- Əmlak vergisi üzrə vergi güzəştləri və azadolmalar
- Müəssisənin əmlak vergisinin hesablanması və ödənilməsi
- Müəssisənin əmlakının vergi tutulan dəyərinin müəyyən edilməsi qaydası
- Torpaq vergisinin dərəcələri;
- Torpaq vergisi üzrə güzəştlər

**2. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi üzrə:**

- İnzibati cərimə
- Müddətin keçməsi ilə bağlı inzibati məsuliyyətdən azad etmə
- Qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma
- Vergiləri, işsizlikdən sığorta və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınma
- Vergi xidməti sahəsində müvafiq icra hakimiyyəti orqanının vəzifəli şəxslərinin tələblərinin yerinə yetirilməməsi

**3. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi üzrə:**

- Qanunsuz sahibkarlıq
- Vergiləri, işsizlikdən sığorta və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınma

**4. Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi:**

- Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi (AVİS) və onun alt sistemləri
- Bəyannamə tərtibatı proqramı (BTP)

**5. Vergi orqanı tərəfindən vergi ödəyicilərinin əlaqəli məlumatları əsasında vergi məbləğinin müəyyənləşdirilməsi:**

- Hüquqi şəxslərin mənfəət vergisi və fiziki şəxslərin gəlir vergisi ödəyicilərinin artıq ödəməsi olmadıqda, vergi orqanı tərəfindən, bəyannamə təqdim edilməmiş dövr üzrə vergi ödəyicilərinin əlaqəli məlumatları əsasında, vergi məbləğinin hesablanması düsturları

**6. Mühasibat Uçotunun Beynəlxalq Standartları üzrə:**

- "Gəlir" adlı 18 №-li MUBS-ə əsasən gəlirin tanınmasının zəruri şərtləri
- "Gəlir" adlı 18 №-li MUBS-in tətbiq edildiyi gəlir növləri
- "Gəlir" adlı 18 №-li MUBS-ə əsasən faiz gəliri
- "Gəlir" adlı 18 №-li MUBS-ə əsasən faiz royalti
- "Gəlir" adlı 18 №-li MUBS-ə əsasən dividend

## ƏDƏBİYYAT:

1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi
2. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi
3. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi
4. İnternet: http://cybernet.az 10.08.2018
5. Y.A.Kəlbiyev, T.M.Hümbətov. Vergilərin hesablanmasına dair praktikum (Dərs vəsaiti). Bakı, 2008
6. Mühasibat Uçotunun Beynəlxalq Standartları, www.maliyye.gov.az

**1. Azərbaycan Respublikasında vergi ödəyicilərinin və dövlət vergi orqanlarının vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyəti hansı qanunvericilik aktı ilə müəyyən edilir?**

A) Azərbaycan Respublikası Vergilər Məcəlləsi
B) Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsi
C) Azərbaycan Respublikası Cinayət Məcəlləsi
D) Azərbaycan Respublikası Mülki Məcəlləsi
E) Azərbaycan Respublikası Mülki-Prosessual Məcəlləsi

**2. Olduqları yer üzrə vergi uçotuna alınmış hüquqi şəxslər xüsusi vergi rejimi üzrə fəaliyyətə başladığı gündən sonra hansı müddət ərzində mərkəzləşdirilmiş uçota alınmaq üçün vergi orqanına müraciət etməlidirlər?**

A) 1 ay
B) 14 gün
C) 15 gün
D) 21 gün
E) 5 gün

**3. İnzibati xətanın bilavasitə obyekti olmuş ödənilməmiş vergilərin məbləği ilə ölçülən cərimənin məbləği həmin vergilərin neçə faizindən (mislindən) artıq ola bilməz?**

A) Bir mislindən
B) 50 faizindən
C) 150 faizindən
D) 75 faizindən
E) İki mislindən

**4. "Vergilərin və rüsumların ödənilməsi qaydaları əleyhinə olan inzibati xətalara görə inzibati tənbeh inzibati xətanın törədildiyi gündən ... verilə bilər".**

A) Ən geci altı ay keçənədək
B) Ən geci bir il keçənədək
C) Ən geci 18 ay keçənədək
D) Ən geci iki il keçənədək
E) Ən geci üç il keçənədək

NÜMUNƏ

**5. Dövlət qeydiyyatına (vergi uçotuna) alınmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa görə inzibati xəta nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) hansı nisbətində cərimə tətbiq edilir?**

A) Bir mislindən iki mislinədək miqdarda
B) Bir mislindən üç mislinədək miqdarda
C) İki mislindən üç mislinədək miqdarda
D) İki mislindən dörd mislinədək miqdarda
E) Üç mislindən dörd mislinədək miqdarda

**6. 18 №-li "Gəlir" adlı Mühasibat Uçotunun Beynəlxalq Standartı aşağıda göstərilən hansı əməliyyat və hadisələrdən qaynaqlanan gəlirlərə tətbiq edilir?**

1. Malların satışı
2. Xidmətlərin göstərilməsi
3. Faiz, royalti və dividend gətirən müəssisə aktivlərinin digər şəxslər tərəfindən istifadə edilməsi

A) 1, 2, 3
B) 1 və 3
C) 2 və 3
D) Yalnız 2
E) Yalnız 1

NÜMUNƏ